Gürcüstanda keçirilən prezident seçkilərində müşahidəçi qismində iştirak edən GUAM Parlament Assambleyasının müşahidəçilər qrupunun rəhbəri, Azərbaycan Milli Məclisinin deputatı Elton Məmmədov demişdir ki, müşahidə etdiyimiz seçki məntəqələrində seçkilər demokratik, şəffaf, Gürcüstanın Seçki Məcəlləsinə və qanunvericiliyinə uyğun keçir, xırda texniki qüsurlara baxmayaraq hələlik elə bir pozuntuya yol verilməmişdir.
Bildirilmişdir ki, seçki məntəqlərində müşahidəçilər və sçicilər üçün lazımi şərait yaradılmışdır.
Elton Məmmədov Gürcüstan azərbaycanlılarının yığcam yaşadıqları Kvemo Kartli-Borçalı bölgəsində də seçkilərin gedişini müşahidə etmək üçün bölgəyə gedəcəyini vurğulamışdır.
Gürcüstan Mərkəzi Seçki Komissiyasından verilən məlumata görə saat 17:00 dək 1,2 milyon seçici öz seçimini etmiş və hələlik seçkilər dinc, normal şəraitdə keçir.